# Nizami Gəncəvi Beynəlxalq Mərkəzi şairin ideyalarının təbliğatçısıdır



***Bu mərkəz Azərbaycan elm və mədəniyyətinin parlaq siması, dahi şair, mütəfəkkir Nizami Gəncəvinin irsinin araşdırılması və onun dünyada təbliği ilə məşğul olan beynəlxalq, qeyri-kommersiya və qeyri-siyasi beynəlxalq təşkilatdır.***

*Bildiyiniz kimi, artıq uzun illərdir ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi fəaliyyət göstərir və bu mərkəzə mənim xüsusi diqqətim vardır. Mərkəz humanitar qeyri-hökumət təşkilatı kimi formalaşsa da, hazırda mərkəzin fəaliyyəti çox genişdir, çoxşaxəlidir.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2011-ci il sərəncamına əsasən, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirlərinin keçirilməsi çərçivəsində 2012 –ci il sentyabrın 30-da təsis edilmişdir. Mərkəz Azərbaycan Respublikasında təsis olunmasına baxmayaraq qərarverici qurumu dünyanın nüfuzlu ictimai və siyasi xadimlərindən təşkil edilmiş beynəlxalq idarə heyətidir. Mərkəzin əsas məqsədi müxtəlif xalqlar və mədəniyyətlər arasında dialoq, tolerantlıq və anlaşmanın təbliğ olunaraq Nizami Gəncəvinin əsərlərində təbliğ etdiyi ümumbəşəri dəyərlərin daha geniş miqyasda dünyaya təbliğ olunmasıdır.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi (NGBM) yarandığı vaxtdan xalqımızın qədim mədəni irsinin və zəngin tolerantlıq ənənələrinin təbliğinə qiymətli töhfələr verir. Son illər bu mərkəz dünyanın nüfuzlu beynəlxalq təşkilatları, aparıcı elmi-mədəni mərkəzləri ilə səmərəli əməkdaşlıq münasibətləri yaratmışdır.

Prezident İlham Əliyev bu qurumun fəaliyyətini həmişə yüksək qiymətləndirmiş, Azərbaycanın siyasi, mədəni həyatında onun əhəmiyyətli rol oynadığını bildirmişdir. Prezident Gəncə Filarmoniyasının yeni binasının açılışı mərasimində mərkəzin fəaliyyətinin müasir dövrdə böyük əhəmiyyət daşıdığını diqqətə çatdıraraq demişdir: “Bu gün Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin xətti ilə keçirilən qlobal forumlar dünya miqyasında nadir beynəlxalq tədbirlərdir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən artıq beş dəfə Bakı Qlobal Forumu keçirilib. Bu forumlarda onlarla həm fəaliyyətdə olan, həm də keçmiş dövlət və hökumət başçıları iştirak edirlər. Hər il bu forum keçirilir və forumun işində mən də iştirak edirəm. Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətini ən azı ildə bir dəfə qəbul edirəm. Həmişə onlara tövsiyə edirəm ki, mütləq Gəncəyə də gedin. Onlar dəfələrlə burada olublar və Gəncə haqqında onların təəssüratları çox müsbətdir.”

Mərkəz dünyanın bir sıra ölkələrində fəaliyyətini uğurla davam etdirir. Çində, Cənubi Koreyada, ABŞ-da, Bosniya və Herseqovinada, Latviyada və digər ölkələrdə mərkəzin reallaşdırdığı layihələr əhəmiyyətli hadisə kimi dəyərləndirilmışdir.

Son illər mərkəz Çin Xalq Respublikasında fəaliyyətini gücləndirməkdədir. Belə ki, mərkəz Çinin Guandzhou şəhərində keçirilən “İmperial Spring - 2019” toplantısında tərəfdaş kimi çıxış edib.

BMT-nin Davamlı İnkişaf Proqramı və beynəlxalq qaydalara əsaslanan dünya nizamına həsr olunmuş konfransın açılışında Çin Xalq Respublikasının vitse-prezidenti iştirakçılardan olub. Tədbir çərçivəsində Çin Xalq Respublikasının Prezidenti toplantıda iştirak edən sabiq ölkə və hökumət başçılarını qəbul edərək toplantı çərçivəsində qaldırılan məsələləri müzakirə edib.

Mərkəzin üzvü Bosniya və Herseqovinanın sabiq prezidenti Mladen İvaniç bildirib ki, “Bir Kəmər-Bir İpək” yol xətti, “17+1” layihələrinin Qafqazdan başlayaraq Şərqi-Avropa ölkələrinin inkişafına göstərdiyi önəmli dəstəyi və Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə keçirilən Qlobal Bakı forumları çərçivəsində mütəmadi olaraq Çin ilə bağlı müzakirə və fikir mübadilələrinin aparılması mühüm rol oynayır.

Onu da qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi növbəti hərbi təxribata cavab olaraq Azərbaycan Ordusunun başladığı uğurlu əks-hücum əməliyyatlarının gedişi dövründə Azərbaycanda ədalətin bərqərar olunacağına böyük ümid bəslədiyini bildirmişdir. Şanlı ordumuzun uğurlu əməliyyatlarına dəstək olmaq məqsədilə mərkəzin əməkdaşlarının təşəbbüsü ilə onların əməkhaqlarının bir hissəsi Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna köçürülmüşdür.

Vətən müharibəsi dövründə mərkəzin üzvləri Ermənistanın təcavüzkar əməlləri haqqında obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyətini davam etdirmişlər. Nizami Gəncəvinin doğma yurdunun erməni təcavüzündən qorunması, Gəncə şəhərində yaşayan dinc əhaliyə qarşı törədilmiş müharibə cinayətlərinin dayandırılması məqsədilə Nizami Gəncəvi Mərkəzinin təşəbbüsünə qoşularaq dahi şairin irsinə, ölməz bəşəri çağırışlarına sayğı duyan qələm adamları, yaradıcı insanlar beynəlxalq ictimaiyyətə müraciət etmişlər.

Həmin müraciətdə deyilirdi ki, 2020-ci il sentyabrın 27-də başlanan və artıq uşaqlar və qocalar da daxil olmaqla, 222 dinc insanın yaralanmasına, 47 mülki şəxsin öldürülməsinə səbəb olan – Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təxribatının yeni dalğasına qarşı kəskin narazılığımızı ifadə etmək istəyirik. Xəsarət almış insanlara şəfa və həlak olanların ailələrinə isə dərin hüznlə başsağlığı veririk. Biz yüksək dağıdıcılıq imkanlarına malik raketlərin Nizami Gəncəvinin məqbərəsini dağıda biləcəyindən də çox narahatıq.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi cənab Prezidentin 2021-ci ili “Nizami Gəncəvi ili” elan etməsini də böyük ruh yüksəkliyi ilə qarşılamışdır. Mərkəzin il ərzində böyük Nizami dühasının ideyalarının beynəlxalq aləmdə geniş təbliğinə əhəmiyyətli yer verəcəyi şübhəsizdir.

*Hazırladı:*
***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***